DOI: 10.22559/folklor.1092
folklor/edebiyat, cilt: 25, sayı: 100, 2019/4

# Dədə Qorqud kimdir?

**Kemal Abdulla***

Azərbaycan ədəbiyyatı "Kitabi-Dədə Qorgud"da (KDQ) olan qədər müəllifin hərəkətdə olduğu digər mətn tanımır. Əsər boyu Dədə Qorqud həm müəllif, həm də personaj kimi özünü göstərir. Bu iki anlayışın – müəllif və personajın hər biri öz daxilində daha kiçik funksiyalara parçalanır. Görkəmli fizik Nils Borun belə vəziyyətlə bağlı maraqlı fikri var. O, başqa görkəmli fizik Hayzenberqlə keçirdiyi görüşlərin birində Hayzenberqin təsvir etdiyi kimi deyirmiş ki, "əgər kimsə həyatda harmoniya axtarırsa, yaddan çıxarmaq olmaz ki, həyat adlı bu oyunda biz eyni zamanda həm tamaşaçı, həm də iştirakçıyıq.[1]

Bu fikri KDQ müstəvisinə və oradakı Dədə Qorqud personasının üzərinə aparsaq, belə deməli olarıq ki, KDQ-də Dədə Qorqudun ikiləşməsi, hətta üçləşməsi bütövlükdə mətnin harmoniyasından və təbii ki, qədim bədiipoetik əhvalından xəbər verir.

Dədə Qorqud KDQ boyu həm **nağılçı** (müəllif), həm **elçi** (Təpəgözün və Dəli Qarcanın yanına getməyi onu bu "ranqa" da qaldırır), həm köhnə **kahin** funksiyalarını hələ də itirməmiş inisiasiya aparıcısı (adqoymaları yada salaq), həm də **müəllimdir** (onun boyların sonunda və Müqəddimədə izhar etdiyi kəlamlar əsl həyat dərsəridir!).

Dədə Qorqudun KDQ-dəki müxtəlif funksiyalarını ayrı-ayrılıqda bu şəkildə qeyd etmək olar.

***Müəllif Dədə Qorqud*** faktiki olaraq KDQ-də özünün daha qədim funksiyasını – mif nüvəsindən xətti narrativ müstəviyə keçidi təmin edir və eyni zamanda KDQ-nin artıq süjetə malik ümumi quruluşunun təminatçısı kimi çıxış edir. Bu isə öz içinə ibtidai bədiipoetik qatı ehtiva edir. Dədə Qorqud məhz bu ilkin quruluşun yaradıcısıdır. Klassik dövrün sonrakı "əlgəzdirmələri" isə KDQ mətnində, bu dastanın həssas tədqiqatçısı, görkəmli ədəbiyyatşünas professor əli Sultanlının dediyi kimi, ağ sapla tikilmiş qara yamağı xatırladır.[2]

***Elçi Dədə Qorqud*** özündə iki qütbü birləşdirir. Bu, birinci halda Oğuzdaxili qütbdür – Qorqud Dəli Qarcarın yanına onun qız qardaşını beşikgərtmə nişanlısı olan Beyrəyə istəməyə

* Prof.Dr., Azerbaycan Milli Bilimler Akademisi asil üyesi. Azerbaycan Diller Üniversitesi Rektörü.

gedir. Dəli Qarcar Dış Oğuzdan olsa da, amma yenə də Qalın Oğuz quruluşuna daxildir. Elçilik funksiyasında Qorqud, əslində, eyni zamanda İç Oğuzla Dış Oğuz arasında vasitəçiliyə çalışır, onların daha sıx birləşməsinə nail olmağa cəhd edir. Maraqlıdır ki, başqa bir boyda – İç Oğuzla Dış Oğuzun qarşı-qarşıya durduğu sonuncu boyda bu iki tayfa arasında vasitəçi kimi artıq Qorqud deyil, Qılbaş göndərilir. Amma bunu anlamaq olar. Qılbaşın funksiyasına həm də kəşfiyyat – Dış Oğuzun əhvalını öyrənmək daxil idi və yəqin ki, bu funksiyanı Dədə Qorqud həyata keçirə bilməzdi.

Dədə Qorqudun ikinci elçiliyi zamanı yerinə yetirdiyi birəşdiricilik funksiyası Oğuzxarici məkanı da ehtiva edir. Dədə Qorqud və Təpəgöz arasında aparılan sövdələşməni nəzərdə tuturuq. Oğuzun içi və Oğuzun xarici bu istiqamətdən bütün üstünlükləri və kəsirləri ilə apaydın görükür. Amma onu da qeyd edək ki, Dədə Qorqudun hər iki qütb üzrə missiyası əsl kəndirbaz işini xatırladır, bu, son dərəcə təhlükəli bir fəaliyyətdir.

***Kahin Dədə Qorqud*** KDQ mətnində öz əsas funksiyası olan adqoyma ritualını həyata keçirməklə daha çox yadda qalır. Bu vacib ritualla o, Oğuz gənclərini cəmiyyətə daxil edir və onların digər üzvlər kimi bərabərhüquqlu olmasını təsdiq edir. Bu, həm də qədim mənəvi başçı funksiyasıdır. Kahin – Başçı funksiyalarının birliyi KDQ mətnində onun köhnə əzəmətinin relikt işartılarını saxlayır. Onu da qeyd eləmək yerinə düşər ki, V.V. Bartoldun yazdığına görə Sibir qazaxlarının (qırğızların) arasından çıxmış oruyentalist Çekan Valixanov ilk şaman **Xorxut**un başqa bir funksiyasından – qırğızları qopuzda çalmağa öyrətməyi haqda danışırmış.[3]

***Müəllim Dədə Qorqud*** Kahin Dədə Qorqudla eyni müstəvidə birləşir. O, Oğuz cəmiyyətinə həyat dərsi keçən, cəmiyyətin adət-ənənələrinin, rituallarının, sirrinin keşiyində duran, insanları bunlardan agah edən seçilmiş bir müdrikdir. Platonun ifadəsini yada salsaq, bir qoruyucudur. O, vəzifəsini həm birbaşa, həm də dolayısı ilə həyata keçirir. Müəllim Qorqud özünün də daxil olduğu ibtidai oğuz icmasının içindən seçilib ayrılmışdır. Bu necə olub, onu kim ayırıb, bu funksiya üçün niyə məhz onu seçiblər – bu maraqlı məsələdir. Bu barədə C.Vikonun belə bir fikrinə şərik çıxdıq ki, o ibtidai dövrdə ilk yaradıcılar özləri özlərini yaradırdılar (Vikoya görə – öyrədirdilər).[4]

Bu məqamla bağlı, yəni, müəllifin öz əsərində oynadığı statik, yaxud dinamik mövqe ilə bağlı, yenə də Platonun özü özünü bəzi dialoqlarında, məsələn, "Fedon"da bir obraz kimi təqdim etməsi yada düşür. Ölüm ayağında həbsxanada son dəqiqələrini yaşayan Sokratın yanına onunla vidalaşmağa tələbələri gəlir. Platon onların adını bir-bir çəkir. Amma Platon özü də Sokratın tələbəsidir və o bu son görüşə gəlməyib. Platon özü haqda belə yazır: Platon gəlməyib, Platon, deyəsən, xəstələnib. Başqa tərcümədə: Platon, deyəsən, nasazdır.[5] Bu barədə və ümumiyyətlə, Sokratın fəlsəfi funksiyası barədə maraqlı görüşlər olan görkəmli fransız filosofu Derrida bu cümləni belə təqdim edir: "Platon, mən belə düşünürəm ki, xəstə idi."[6] Göründüyü kimi Derrida Platonun Sokratla son görüşə gəlməməsinin səbəbini bir qədər də "yumşaldır". Amma istənilən halda özünün "Fedon" dialoqunda özü barədə yazan Platon əsərin həm müəllifi, həm də qəhrəmanlarından biri kimi diqqəti çəkir. Nils Borun belə məqamla bağlı dediklərini bir daha yada salmaq olar. Həm iştirakçı, həm müəllif olmaq Təbiətin harmoniyası prinsipinə daxildir.

Müəllif Dədə Qorqud dastanında özü haqda danışır, özü özündən, belə deyək, təcrid olunur, onların (müəllif və müəllif tərəfindən yaradılan obrazın) arasında müəyyən distansiya yaranır. KDQ-də bu hərəkətlilik həm linqvistik ünsürlərin daxili semantik və sintaktik düzənində, həm də müəllifin açıq-aşkar obrazlaşmasında özünü göstərir. "**Ol yana – bu yana"** ünsürlərinin daxili potensialından çıxış etsək, deməliyik ki, Müəllif burada da özünün enantiosemioloji funksiyasına sadiqdir. O, təsvir içində müəyyən pozisiya tutmasından başlayaraq, hər boyun sonunda gəlib boyu tamamlamasına qədər (Müəlliflik missiyası!), Müqəddimə və digər məqamlarda etioloji fəaliyyətinə qədər (müəllimlik missiyası), bir obraz kimi elçiliyə getməsinə qədər (əlaqəçi missiyası!), boy daxilində gəlib inisiasiyadan keçirilmiş gənclərə öz ritualı çərçivəsində ad verməsinə qədər (kahinlik missiyası!) aktiv hərəkətdədir. Və bütün bunlar zərrə-zərrə mifoloji mətnin bədiipoetik potensialına hopur. Şellinqin sözlərini bir qədər dəyişdirib desək, mifoloji poetik dərinliklərdə çoxmissiyalı zərrəciklər bərq vurur ("sözün dərinliklərində cürbəcür mənalar sayrışır").

Mətndə sahmanlayıcı vasitə olan "ol mahalda" ünsüründəki "ol" əvəzliyinin distansiya yaratma funksiyası ilə bağlı belə bir misala diqqət yetirək. Qanturalı döyüş meydanında itkin düşüb. Selcan Xatun hər yerdə onu axtarmaqdadır. Mətn deyir:

*"**Ol mahalda,** Qanturalının babası, anası çıxa gəldi" (s. 194).*

Bu parçada "ol" əvəzliyinin semantikası ("bu" əvəzliyindən fərqli olaraq) təsvir edənin, yəni, müəllifin təsvirin özündən bir qədər kənarda durmasına imkan yaradır. Müəllif sanki hadisəyə kənardan (uzaqdan!) baxmağa üstünlük verir. "Ol" əvəzliyi vasitəsilə Müəllif hiss etdirir ki, onun özü təsvir edilən situasiyanın içində deyil, ondan uzaqdadır.

Müəllifin təsvir etdiyi hadisədən distantlığı mətnin qədimliyinə dəlalət edir O. Freydenberq haqlı olaraq qeyd edir ki, "arxaik hekayədə müəllif öz hekayəsinin təsvirində nə həmən vaxtın, nə də həmən məkanın içində olur."[7]. Bu məqamla bağlı biz də deyə bilərik ki, KDQ-də Müəllif özünü təsvir etdiyi hadisədən kənar bir məsafədə saxlaya bilir. Və bu, əslində, KDQ mətninin qədimliyinin daha bir göstəricisi sayılmalıdır.

**Notlar**

1 Гейзенберг В. Физика и философия. Часть I. М., «Наука», 1989, с. 27.

2 Bax: Sultanlı Əli. «Kitabi-Dədə Qorqud» dastanı haqqında qeydlər. «Məqalələr» kitabında, Bakı, 1971.

3 Bax: Бартольд В.В. Турецкий эпос и Каваказ. «Книга моего деда Коркута. В кн.: «Огузский героический эпос». Баку, 1999, с. 120

4 Bax: Вико Дж. Основания новой науки об общей природе наций. Москва-Киев, 1994.

5 Bax: Платон. Избранные диалоги. М., 2007, с.348.

6 Деррида Ж. Формация Платона. «Диссеминация» kitabında, Yekaterinburq, 2007.

7 Фрейденберг О.М. Миф и литература древности, М., «Наука», 1978, с. 224.